QAFQAZ EDUCATION

# 6-CI SİNİF

# 2024-2025

# AZƏRBAYCAN DİLİ BİLİK YARIŞI

---

- İmtahan müddəti 60 dəqiqədir.
- Cavablar 100 balla qiymətləndirilir.
- Səhv cavab düzgün cavabın balını silmir.
- Nəticələr 1 gün ərzində açıqlanacaq!

**1.** "Bir neçə gün Oruc baba qonaqlara o ki var öz qonaqpərvərliyini göstərir, axtarıb tapmadıqları ***atlası*** da məktəb üçün tapıb gətirdir" cümləsində fərqləndirilmiş söz verilmiş nümunədə sonunda rəqəm qoyulmuş hansı ifadəyə aiddir?

***Coğrafiya1 kabinetində2 qlobus3 və xəritələr toplusu4 nizamla düzülmüşdür. Dərsin maraqlı keçməsi üçün əyani vəsaitlərin rolu5 böyükdür.***

A) 3
B) 1
C) 5
D) 4
E) 2

**2.** Həm həqiqi, həm də məcazi mənada işlənə bilən cümləni müəyyənləşdirin.
A) El üçün ağlayan iki gözdən olar.
B) Dəmiri isti-isti döyərlər.
C) Söz qılıncdan itidir.
D) Gülmə qonşuna, gələr başına.
E) Çox istəyən azdan olar.

**3.** Sonundakı rəqəmlərə əsasən deyilişi və yazılışı fərqlənən sözləri müəyyənləşdirin.

***Ailədə1 nümunəvi2 davranış3 vacibdir. Bizi belə4 öyrədiblər, çəkilən zəhməti qiymətləndirmək5 borcumuzdur.***

A) 4, 5
B) 1, 2
C) 1, 5
D) 2, 3
E) 3, 4

**Mətni oxuyun və 4 və 5-ci tapşırıqları mətn əsasında cavablandırın.**

Bir arabaçı hava qaralana yaxın çox yüklənmiş arabasını sürətlə şəhərə doğru sürürdü. Yolda piyada gedən bir yolçuya rast gəlir və soruşur:
– Nə deyirsən, darvazalar bağlanmamış şəhərə çata bilərəmmi?
Yolçu cavabında:
– Çatarsan, ancaq bir az yavaş getsən.
Arabaçı:
– Yəqin dəlidir, deyə düşünür.
Atlarını qamçılayaraq daşlı-çınqıllı yolla arabanı bir az da sürətlə sürür. Birdən təkər sınır, araba aşır, səbətlər dağılır.
Arxadan piyada gələn yolçu arabaçıya:
– Bax gördünmü, mən haqlı deyildim? Həm arabanı çox bərk sürdün, həm də ziyana düşdün.

**4.** Mətnin nəticə hissəsinə uyğun gələn başlığı müəyyən edin.
A) Piyada gedən yolçu
B) Sürətlə gedən araba
C) Havanın qaralması
D) Çox yüklənmiş araba
E) Ziyana düşən arabaçı

**5.** Mətnin məzmununa uyğun olan fikir hansıdır?
A) Əldən qalan əlli il qalar.
B) Qonşuya ümid olan şamsız qalar.
C) Dost dosta tən gərək...
D) Ağac bar verəndə başını aşağı əyər.
E) Tələsən təndirə düşər.

**6.** “*İnsanları kitablar kimi düşün və cildinə baxıb aldanma. Əsl* [*dəyərini*] *oxumağa başlayınca anlarsan.*“ cümləsindəki çərçivəyə alınmış sözü hansı sözlə əvəz etmək olar?
A) böyüklüyünü
B) bacarığını
C) anlayışını
D) qiymətini
E) etibarını

**7.** Nöqtələrin yerinə uyğun gələn məcazi mənalı ifadəni müəyyən edin.
***Həyatda uğur qazanmaq üçün ... lazımdır.***
A) savadlı olmaq
B) çalışmaq
C) kömək etmək
D) işləmək
E) tər tökmək

**8.** Deyilişi və yazılışı fərqlənən sözləri müəyyənləşdirin.

*1. yaşadıq* *3. etdik*
*2. müddət* *4. bacardıqca* *5. nəsihət*

A) 2, 3
B) 1, 5
C) 2, 5
D) 1, 3, 4
E) 2, 3, 4

**9.** Verilmiş sözlərdən biri digərləri ilə sinonim deyil?
A) keyfiyyət
B) dəyanət
C) səbir
D) dözüm

**10.** “Dənizin dərin qatlarından min bir əziyyət bahasına çıxarılan neft öz şöhrətini Azərbaycandan uzaqda da qazandı” cümləsində hansı sözlər birlikdə məcazi məna daşıyır?
A) öz şöhrətini
B) dərin qatlarından
C) Azərbaycandan uzaqda
D) şöhrətini qazandı
E) min bir əziyyət

**11.** Mətnə uyğun gələn başlığı müəyyənləşdirin.

***Bir alim oğlanlarına nəsihət verərək deyir:***
***– Övladlarım, sənət öyrənin, dünya malına etibar yoxdur. Sənət sahibi dövlətdən məhrum olsa, qorxusu yoxdur, çünki sənət özü elə bir dövlətdir, hara getsə, hörmət qazanar. Sənət qaynar bulaq, tükənməz bir xəzinədir.***
***Övladlar atalarına hörmətlə qulaq asıb, hər biri bir sənət sahibi oldular.***

A) Alimin elmi
B) Naxələf övlad
C) Elmin qüdrəti
D) Tükənməz xəzinə
E) Alimin səyi

**12.** Ahəng qanununa tabe olmayan sözləri müəyyənləşdirin.

*1. dərrakə* *3. fauna*
*2. əmanət* *4. aşırım* *5. baytar*

A) 3, 5
B) 1, 2
C) 1, 5
D) 2, 4
E) 2, 3

**13.** Sözlərin düzgün yazıldığı bəndləri müəyyən edin.

*1. mərhəmətli* *3. göstərməyi*
*2. deyəllər* *4. bacarmalıyıx* *5. qənayət*

A) 2, 3
B) 2, 4
C) 1, 4, 5
D) 1, 3
E) 1, 2, 5

**14.** Uzun saiti ilk hecaya düşən sözü müəyyən edin.
A) ibtidai
B) ədalət
C) qanun
D) süvari
E) sülalə

**15.** Sillogizmi tamamlayan nümunəni müəyyən edin.

***I hökm: Qeyri-müəyyən miqdar sayları aşyanın təxmini miqdarını bildirir.***
***II hökm: "Yüzlərcə" sözü aşyanın təxmini miqdarını bildirir.***
***Nəticə: ...***

A) "Yüzlərcə" sözü aşyanın konkret miqdarını bildirir.
B) Qeyri-müəyyən miqdar sayları quruluşca üç cür olur.
C) Qeyri-müəyyən miqdar sayları miqdar saylarının növlərindən biridir.
D) "Yüzlərcə" sözü qeyri-müəyyən miqdar sayıdır.
E) "Yüzlərcə" sözü müəyyən miqdar sayıdır.

**16.** Yalnız cingiltili samitlərin işləndiyi ifadələri müəyyən edin.
A) nadir atlet
B) Kanzasın polad atı
C) qaçış rekordları
D) dünyanın adamı
E) sürətli adam

**17.** Hansı sözdə "k" samiti [x'] kimi tələffüz olunur?
A) kilkə
B) kəlbətin
C) tikə
D) xörək
E) nəlbəki

**18.** Orfoqrafik qaydaya uyğun ***yazılmayan*** sözü müəyyənləşdirin.

*Bulutdara yüklədim həsrətimi,*
*Şimşəklərə çaxdırdım sevgimi...*

A) həsrətimi
B) sevgimi
C) çaxdırdım
D) şimşəklərə
E) bulutdara

**19.** "Təhsilin məqsədi boş bir zehnin yerinə, açıq bir zehin qoymaqdır" nümunəsində çərçivəyə alınmış sözü hansı sözlə əvəz etmək olar?
A) sahəsinə
B) mərkəzinə
C) ərazisinə
D) əvəzinə
E) hissəsinə

**20.** Sözlərin ümumi qrammatik mənasına görə qruplara bölünməsi adlanır:
A) nitq hissələri
B) leksikologiya
C) morfologiya
D) söz yaradıcılığı
E) leksikoqrafiya

**21.** Eyler-Venn diaqramına əsasən düzgün fikirləri müəyyən edin.




*1. Müəyyən miqdar sayıdır.*
*2. Ondan yeni söz yaratmaq olmur.*
*3. Cümlə üzvü olur.*
*4. Numerativ sözlə işlənə bilir.*
*5. Hansı? sualına cavab verə bilir.*
*6. Ondan sonra gələn isim cəmdə ola bilmir.*

A) 1, 2, 4
B) 2, 3, 4
C) 1, 3, 5
D) 1, 5, 6
E) 2, 4, 6

**22.** Xəbərlik şəkilçilərini müəyyən edin.
A) -lıq
B) -sınız
C) -ınız
D) -laş
E) -lı

**23.** Sual işarəsi və nöqtələrin yerinə yazıla bilən nümunəni müəyyən edin.




A) sifət – yağışlı
B) isim – quruculuq
C) isim – kitablardan
D) isim – meşəbəyi
E) sifət – soyuqqanlı

**24.** Hansı cümlədə kursivlə verilmiş söz səhv yazılmışdır?
A) ***Beynim*** çox yorulub.
B) "Vaqif bir ***oğuludur*** əbədiyyətin,
Ölməz böyük dili şeirin, sənətin".
C) "Bahar ***fəsli***, yaz ayları gələndə"
D) ***Şəkliniz*** şərəf lövhəsinə vurulmuşdur.
E) "Bir ***boynu*** olsaydı bəşəriyyətin,
Onu bir qılıncla vurardım yəqin".

**25.** "Vedrə" sözü hansı cümlədə numerativ söz kimi işlənmişdir?
A) Vedrə bulaq suyu ilə doldurulmuşdu.
B) Köhnə vedrə ilə palçıq daşıyırdılar.
C) O, ağacın dibinə bir vedrə su tökdü.
D) Vedrə təptəzə idi.
E) O, əşya bazarından üç ədəd vedrə aldı.